# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi və onlardan istifadə edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 429 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 429 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1317) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi və onlardan istifadə edilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bənd üzrə:

1.1. ikinci cümləyə “siyahısı” sözündən sonra “, onların adı, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodu, mənşəyi, istifadə məqsədinə dair məlumat” sözləri əlavə edilsin;

1.2. altıncı cümlə aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən prekursorların illik tələbatı barədə qəbul edilmiş qərar real vaxt rejimində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və prekursorların idxalına,

ixracına, tranzit nəql edilməsinə nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə göndərilir.”.

2. 1.5-ci bəndin üçüncü cümləsində “toplanılmış məlumat” sözləri “qəbul edilmiş qərar real vaxt rejimində” sözləri ilə, “təqdim edilir” sözləri “və prekursorların idxalına, ixracına, tranzit nəql edilməsinə nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə göndərilir” sözləri ilə əvəz edilsin.

3. 4.2-ci bəndə “sənəd” sözündən sonra “, prekursorların illik tələbatı və ya illik tələbatın həcminin dəyişdirilməsi barədə qəbul edilmiş qərar” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 yanvar 2023-cü il

№ 9